**Həcər MƏMMƏDLİ**
Musiqişünas
Ünvan: Bakı, Yasamal rayonu, Ələsgər Ələkbərov 7
Email:hecer-memmedli@mail.ru

# “TELLİ SAZIM” PEŞROVU

***Xülasə:*** *Məqalə Aşıq İslam və atası Aşıq Rza Qobustanlının ifasında səslənmiş “Telli sazım” peşrovunun musiqi təhlilinə həsr edilib. Hər iki ifada bu peşrov nota salınaraq müqayisəli şəkildə araşdırılmışdır.*
***Açar sözlər:*** *Aşıq İslam, Telli sazım, müqayisəli təhlil, Aşıq Rza Qobustanlı*

Aşıq İslam Rza oğlu 1977-ci ildə Şirvanın məşhur aşıqlarından olan Rza Qobustanlının ailəsində dünyaya göz açıb. Saz-söz sənətinə uşaq yaşlarından həvəs göstərib və aşıq kimi el şənliklərində məşhurluq qazanıb. Bununla yanaşı, konservatoriyada xanəndə, xalq artisti Arif Babayevdən muğamın sirlərini öyrənib. 2013-cü ildə yol qəzası nəticəsində erkən dünyasını dəyişmişdir. Onun ifasında səslənən “Telli sazım” peşrovunu təhlil materiallarına daxil etmişik. Aşıq İslam bu sənəti öz atası, aşıq sənətinin istedadlı və tanınmış nümayəndələrindən biri olan Aşıq Rza Qobustanlıdan öyrənmişdi. “Telli sazım” peşrovu onun ifasında da sənətsevərlərin diqqətini cəlb etmişdir. Musiqi təhlili zamanı biz hər iki ifada bu peşrovu nota salaraq müqayisəli şəkildə araşdırmışıq. Aşıq İslam muğam ifaçılığına yaxından bələd olduğu üçün onun ifasında muğam elementləri üstünlük təşkil edir [2, s. 105].

Aşıq İslamın ifasında peşrov instrumental girişlə başlanır. Lakin burada “Çoban yaylağı” peşrovunda rast gəldiyimiz muğamvari giriş yoxdur. İnstrumental giriş isə peşrovun kupletinin musiqisi üzərində qurulmuşdur. Aşığı müşayiət edən balaban, nağara və qoşa nağara sazın iştirakı ilə birgə bəhrli giriş ifa edir. Burada da ilk iki misra sual-cavab xarakterli musiqi cümlələri şəklində hər biri iki dəfə təkrar olunur. İki cümlədən sonra bu parçanı balaban ara çalğı ilə ifa edir. Növbəti iki cümlə də eyni qaydada qurulur və sonda birinci instrumental intermediya səslənir. Göründüyü kimi, birinci kupletin ifa forması “Çoban yaylağı” peşrovunda olduğu kimi qurulur. Lakin II kupletdə vəziyyət bir qədər fərqli görünür. Belə ki, əvvəlki peşrovdan fərqli olaraq burada ara çalğıdan istifadə olunmur. Aşıq misraları qruplaşdıraraq təkrar edir, lakin II misradan sonra ara çalğı səslənmir [4, s.25].
Mətni:

Gəl-gəl odlu sinəm üstə
Səni alım telli sazım.
Ürək açan tellərini
Alım, çalım telli sazım.

Sən düşmənsən qəmə-dərdə
Səsin qalxır pərdə – pərdə.
Qoy səninlə məclislərdə
Bir ad alım telli sazım.

Aşıq deyir gəlir zaman
Mən köçsəm də bu dünyadan.
Ürəklər də hər vaxt hər an
Mehman qalır telli sazım.

Nümunə № 1

*Telli sazım*

aşıq İslamın ifasından




Üçüncü bənd peşrovun kulminasiyasını təşkil edir, mayənin oktavasında (peşrov re bemol mayəli rast məqamına əsaslanır) səslənir. Aşıq iki misranı oxuduqdan sonra balaban həmin parçanı ifa edir. Burada ilk iki misranın təkrarı balabanın ifasından sonra baş verir. Daha sonra aşıq mayə səsinə enərək üçüncü və dördüncü misraları ifa edir və peşrovu tamamlayır.

Bildiyimiz kimi, bir sıra hallarda aşıqlar peşrovdan sonra təsnif ifa edir. Burada da Aşıq İslam peşrovun ardınca təsnif ifa edir. Təsnifin xarakteri oynaq, şən əhvali-ruhiyyəli olur, mətni həyatsevər mövzuların tərənnümünə həsr olunur. Ritmik canlanma peşrovun yaratdığı sakitliyə təzad təşkil edir və sanki məclisi canlandırmağa xidmət edir. Peşrovdan sonra təsnifin ifası olunmasını Aşıq Şərbət də qeyd etmiş və “Eyvaz” peşrovundan sonra səslənən təsnifi ifa etmişdir.

Aşıq İslamın ifa etdiyi təsnifin mətni daha müasir dövrü ehtiva edir. Burada keçmiş Sovet məkanında zəhmətkeşlərin əməyini tərənnüm edən mövzulara həsr olunmuş aşıq mahnıları daha çox yaranırdı. Bu təsnifin də mətni məhz belə mövzulara həsr olunmuşdur.

**Təsnif**

Günü-gündən abadlaşan a dostlar
Səhralar bizimdi, çöllər bizimdi.
Sülhün keşiyində müzəffər duran
Qəhrəman oğlanlar, qızlar bizimdir,
Dağları oynadan ellər bizimdir.

Coşqun dənizlərdə buruqlar salan
Vətənin eşqilə min zəfər çalan
Əməlilə şöhrət tapıb ad alan
Biləklər bizimdi, əllər bizimdir,
Qəhrəman oğlanlar, qızlar bizimdir.

Aşıq Rza sədəfli saz əlində
Gəzir, mahnı deyir Şirvan elində.
Aranından, yaylağından, çölündən
Ətir saçan tər çiçəklər bizimdir,
Qəhrəman oğlanlar, qızlar bizimdir.

Aşıq Rzanın ifasında peşrov temp baxımından daha asta ifa edilir. Birinci kupletin ifa forması eynilə verilir, lakin ikinci misradan sonra ara çalğıdan istifadə olunmur.

Nümunə № 2

*Telli sazım*

aşıq Rza Qobustanlının ifasından




Birinci bənddən sonra balaban və müşayiət dəstəsi kupletin musiqi materialını ifa edir. İkinci kupletdə aşıq hər misranı bir dəfə oxuyur, yalnız sonuncu misranı iki dəfə təkrar edir. Təkrar zamanı kadans variantı yaranır.

Növbəti instrumental intermediyadan sonra peşrovun kulminasiyası səslənir. İfadan göründüyü kimi, Aşıq İslamdan fərqli olaraq Aşıq Rza təkrarlara çox yer vermir. Sonuncu kupletdə də yalnız sonuncu misranı təkrar edərək peşrovu tamamlayır.

Təhlil zamanı 2 aşığın ifası əsas götürülmüş və nota salınmışdır. Aşıqların ifa üslubunda rast gələn fərqli xüsusiyyətlər isə ilk növbədə ifa forması ilə aşkar olunur. Aşıq Rza Qobustanlının ifasında səslənən "Telli sazım" peşrovunda bəhrsiz giriş yoxdur, peşrov bəhrli instrumental girişlə başlanır.

## ƏDƏBİYYAT:

1. Köçərli İ.T. Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə. B.: Səda, 2003, s. 171
2. Nəbiyev A.M. Azərbaycan aşıq məktəbləri. B.: Nurlan. 2004, s. 312
3. Eldarova Ə.M. Azərbaycan aşıq sənəti. B.: Elm. 1996, s. 202
4. Həkimov M.İ. Aşıq sənətinin poetikası. B.: ADMİU.2017, s. 306

**Гаджар МАММЕДЛИ**
Музыковед

## ПЕШРОВ «ТЕЛЛИ САЗЫМ»

***Резюме:*** *В статье представлен музыкальный анализ песни «Телли сазым» в исполнении Ашуга Ислама и его отца – Ашуга Рза Гобустанлы. Представлена нотная запись песни.*

***Ключевые слова:*** *Ашуг Ислам,Телли сазым, сравнительный анализ*

**Hajar MAMMADLİ**
Musicologist

## "TELLI SAZIM" PESHROV

***Summary: T****he article is based on musical analysis of the "Telli sazim" professional Ashyq Islam and his father, Ashig Rza Gobustan. Both plays have been comparatively studied.*

***Key words:*** *Ashiq Islam, Telli sazim, Comparative Analysis, Ashig Rza Gobustanli*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Leyla Quliyeva;
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Cəmilə Mirzəyeva